AZƏRBAYCAN RESPUBLİKASI
ELM VƏ TƏHSİL NAZİRLİYİ

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin*

*22.08. 2024-cü il tarixli*

*3-29/3-2-540F/2024 nömrəli əmrinə*

*16 nömrəli əlavə*

AZƏRBAYCAN RESPUBLİKASI ELM və TƏHSİL NAZİRLİYİ
VƏTƏNDAŞLARA XİDMƏT VƏ SƏNƏDLƏRLƏ İŞ ŞÖBƏSİ
ƏSLİ İLƏ DÜZDÜR

**"MODA DİZAYNI" İXTİSASI ÜZRƏ**

**T Ə H S İ L P R O Q R A M I (KURİKULUM)**

**BAKI – 2024**

# 1. Ümumi müddəalar

1.1. Subbakalavr peşə-ixtisas dərəcəsi verən “Moda dizaynı” ixtisasının təhsil proqramı “Təhsil haqqında” və “Peşə təhsili haqqında” Azərbaycan Respublikasının qanunlarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Peşə təhsili müəssisələrində yüksək texniki peşə təhsili səviyyəsi üzrə tədrisin kredit sistemi ilə təşkili Qaydası”na aid qərarı və Elm və Təhsil Nazirliyinin müvafiq qərarları ilə təsdiq edilmiş subbakalavr peşə hazırlığını həyata keçirən təhsil proqramlarının hazırlanmasını tənzimləyən müvafiq hüquqi sənəd və qaydalara uyğun hazırlanmışdır.

1.2. Yüksək texniki peşə təhsili proqramları (kurikulumlar) təlim nəticələri və məzmun standartlarını, tədris fənn/modullarını, həftəlik dərs və dərsdənkənar məşğələ saatlarının miqdarını, pedaqoji prosesin təşkili, təlim nəticələrinin qiymətləndirilməsi sistemini özündə əks etdirən sənəddir.

1.3 Təhsil Proqramı (kurikulum) tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq Azərbaycan Respublikasında fəaliyyət göstərən və həmin ixtisas üzrə subbakalavr hazırlığını həyata keçirən bütün peşə təhsili müəssisələri üçün məcburidir.

1.4 Strukturda istifadə olunan işarələr:
**İTP –** ixtisas üzrə Təhsil Proqramı
**ÜK –** ümummədəni kompetensiyalar
**PK –** peşə kompetensiyaları

1.5 “**Moda dizaynı”** ixtisası üzrə təhsil proqramlarının mənimsənilməsinin normativ müddəti və məzunlara verilən ixtisas dərəcəsi:

| | |
|---|---|
| **İxtisasın şifri və adı:** | 030819 Moda dizaynı |
| **İxtisas qrupu / İqtisadi sektorlar:** | Modelçilik və dizayner |
| **Peşə təhsili səviyyəsi:** | Yüksək texniki peşə təhsili |
| **İxtisas dərəcəsi:** | “Moda dizaynı” ixtisası üzrə subbakalavr |
| **Peşə təhsili səviyyəsi** | Yüksək texniki peşə təhsili |
| **Kreditlərin sayı:** | 180 |
| **AzMKÇ səviyyəsi:** | 5 |
| **İSCED kodu:** | 0212 Fashion, interior and industrial design |
| **Məşğulluq təsnifatında kodu:** | 3432 |
| **Qəbul şərtləri:** | Ən azı ümumi orta təhsil |
| **Təhsil forması və müddəti:** | Əyani, Tam orta təhsil bazasından 3 il;<br>Ümumi orta təhsil bazasından 4 il. |
| **Məşğulluq imkanları:** | Modelyer dizaynerlər topdansatış və ya istehsal müəssisələrində, geyim şirkətlərində, pərakəndə satış müəssisələrində, teatr və dizayn şirkətlərində |

030819 **“Moda dizaynı”** ixtisası Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nin (AzMKÇ) 5-ci səviyyəsinə uyğundur.

1.6 Təhsil proqramı üzrə bir semestrə 30 kredit müəyyənləşdirilir. Bir kredit tələbənin auditoriya və auditoriyadankənar 30 saatlıq işinə bərabərdir. Tələbənin 5 (beş) günlük iş rejimində həftəlik auditoriya və auditoriyadan-kənar yükünün ümumi həcmi 45 saatdır. Tələbənin həftəlik işinin həcmi 1,5 kreditdir. Buraxılış dövlət və semestr imtahanlarına hazırlığa, imtahanın verilməsinə və təcrübələrin keçirilməsinə ayrılmış hər bir həftə 1,5 kreditə bərabərdir. Tələbə üçün hər semestrdə 30 kreditə qədər modul və fənlərin tədrisi müəyyənləşdirilir. Müvəffəqiyyətlə təhsil alan tələbələrə əlavə ödəniş etmədən təhsil aldığı ixtisas üzrə əlavə modul (modullar) seçməyə icazə verilir və bütün hallarda bir semestrdə tələbənin götürdüyü kreditlərin sayı 40-dan çox olmamalıdır.

1.7 Müəyyən olunmuş kreditin tələbə tərəfindən yığılması məcburidir. Kreditləri müəyyən səbəblərdən qazanmayan (qazana bilməyən) tələbənin həmin modul/fənn üzrə akademik borcu qalır. Cari semestrdə müəyyən səbəbdən imtahanda (imtahanlarda) iştirak etməyən və (və ya) həmin semestrdə akademik borcu yaranmış tələbəyə növbəti semestrin dərsləri başlayanadək bir dəfə həmin imtahanı (imtahanları) vermək imkanı yaradılır. Əlavə olaraq tələbə hər bir semestrdə modul (fənni) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki modul üzrə (hər moduldan bir dəfə olmaqla) də imtahanda iştirak edə bilər.

# 2. “Moda dizaynı” ixtisası üzrə məzunların ixtisas xarakteristikası və kompetensiyası

## 2.1 Subbakalavrın ixtisas xarakteristikası

“Moda dizaynı” ixtisası üzrə məzun olan mütəxəssis müstəqil şəkildə geyim sektorunda müxtəlif geyim və aksesuarların konsrtuksiya edilməsi və hazırlanması, biçmə və ülgülərin hazırlanması, yeni moda trendlərinə nəzərə alınmaqla müştəri sifarişlərinin dizayn edilməsi, marka yaradılması və geyim kolleksiya üçün üslub, parçalar, rənglər, çaplar və trimlər seçilməsi kimi bacarıqlara yiyələnəcəkdir.

Bu proqramdan məzun olacaq subbakalavr tikiş fabriki, geyim aksesuarları istehsalı müəssisələri, həmçinin moda evlərində və fərdi moda dizayn və ya dərzi atelyelərində çalışa bilər.

2.1.1 **Peşə fəaliyyətinin əsas istiqamətləri (vəzifə və funksiyalar):**

- Paltar və digər geyim aksesuarlarının hazırlanması üçün sifarişlərin qəbulu, ölçülərin götürülməsi
- Müştəri istəyinə uyğun ilkin eskiz və dizayn həllərinin verilməsi
- Geyim çertyojunun modelə uyğun hazırlanması
- Geyim hazırlanması üçün istifadə edilən tikiş, biçmə və ülgü avadanlıq, alət və ləvazimatlarından istifadə
- Kompüter proqram təminatından istifadə etməklə müxtəlif dizayn həlləri və ülgü nümunələrinin hazırlanması
- Geyim aksesuarlarının dizayn tələbləri, tələblərə uyğun dizayn nümunələrinin hazırlanması
- Sənaye üsulu ilə geyim hazırlığıdan istifadə edilən avadanlıq və alətlərdən istifadə
- Müxtəlif növ geyimlərin biçilməsi, tikişi və model və müştəri üzərində yoxlanması
- Geyim hazırlığı üçün istifadə edilmə material və ləvazimatların fərqləndirilməsi, ehtiyaca uyğun sifarişin formalaşdırılması
- Marka yaradılması, fərdi kolleksiya hazırlığı işləri
- Moda evinin işinin planlaşdırılması, təşkili və hesabatlılığın təmini
- Məhsulun marketiniqinin və satışının təşkili

2.1.2 **Peşə fəaliyyəti üzrə hazırlıq səviyyəsinə qoyulan tələblər:**

İxtisas üzrə:

- Əçmək təhlükəsizliyi və sanitariya-gigiyena üzrə tələb və təlimatları bilir
- Tikiş, biçmə və keyfiyyətə nəzarət üçün tələb olunan tətbiqi bacarıqlara sahibdir;
- Moda sənayesinin əsas trend və üslublarını, element və prinsipləri bilir
- Yeni məhsulun dizayn edilməsi və hazırlanmasını bacarır
- Moda dizaynı və hazır məhsul hazırlanması üçün parça və digər materialları tanıyır, ayıra bilir və xüsusiyyətlərini sadalayır
- Moda dizaynı və paltar tikilməsi üçün istifadə edilən maşın, avadanlıq və alətlərdən istifadə edir

- Paltarın və digər aksesuarların dizayn konseptin və həllini hazırlayır, planlaşdırır və tətbiq edir
- Tekstill sənayesi müəssisələrində kompüter və əl ilə idarə edilən avadanlıqlardan istifadə edir
- Moda dizaynı üzrə marka yaratma, qeydiyyatı və digər hüquqi tənzimləmərdən məlumatlıdır
- Ölçü standartları, ölçü götürmə üzrə qaydaları və tələblərə uyğun ölçü alətlərindən istifadə etməklə ölçü götürmək;
- Keyfiyyətə stadandartları və tələblər, nəzarət mexanizmi;
- Peşəsi ilə bağlı yeni məlumat və bilikləri əldə edə bilir

Yumşaq bacarıqlar (soft skills):

- Zamanın idarə olunması
- Problem həll etmə
- Yaradıcılıq

**2.2. Proqramın mənimsənilməsi nəticəsində məzunun kompetensiyasına qoyulan tələblər.**

2.2.1 Məzun aşağıdakı ümummədəni kompetensiyalara (**ÜK**) yiyələnməlidir:

- kollektivdə işləmək **(ÜK-1);**
- öz sahəsi və digər sahələrin mütəxəssisləri ilə ünsiyyətdə olmaq **(ÜK-2);**
- etik normalara malik olmaq **(ÜK-3);**
- sağlam həyat tərzini gözləmək **(ÜK-4);**
- tənqid və özünətənqidə dözümlülük göstərmək **(ÜK-5);**
- problemli şəraitlərdə təşəbbüskarlıq göstərmək və məsuliyyəti öz üzərinə götürmək **(ÜK-6);**
- dövlət dilində sərbəst danışmaq **(ÜK-7);**
- xarici dildə ünsiyyətdə olmağı və fikrini ifadə etməyi bacarmaq **(ÜK-8);**
- İKT-dən istifadə etməyi bacarmaq **(ÜK-9);**
- Karyera planlaması və karyera yüksəlişi üçün öz inkişafına, peşəkarlığının artırılmasına çalışmaq **(ÜK-10);**
- fikrini düzgün və yığcam ifadə etmək **(ÜK-11);**
- Peşə fəaliyyəti,gündəlik həyatda əmək təhlükəsizliyi və sağlamlıq qaydalarına riayət etmək həmçinin digər şəxsləri məlumatlandırmaq **(“ÜK-12).**
- Xidmət göstərdiyi fəaliyyət sahəsi üzrə daim yenilikləri araşdırmaq **(ÜK-13)**

2.2.2 Məzun aşağıdakı peşə kompetensiyalarına (**PK**) yiyələnməlidir:

- fəaliyyət sahəsinə aid olan, peşəsinə və ixtisas dərəcəsinə uyğun gələn istənilən istehsal sahələrinin, təşkilatların, idarələrin, müəssisələrin, şirkətlərin və s. əsas problemlərini sistemləşdirməyi bacarmaq, onların kompleks təhlilini aparmaq və idarəetmə məqsədləri üçün konkret nəticə çıxarmaq və aradan qaldırmaq **(PK-1);**
- mövcud tələbləri müvəffəqiyyətlə müəyyənləşdirə bilmək, uyğun bir həll metodu seçmək və tətbiq etmək **(PK-2);**
- peşə fəaliyyətində İKT-dən istifadə etmək **(PK-3);**

- müəyyən vəzifələr qoymağı, onları həll etmək üçün uyğun metodları seçməyi və tətbiq etməyi bacarmaq **(PK-4);**
- ixtisasla əlaqəli əsas anlayış və terminlərin mənasını bilmək və praktikada tətbiq etmək **(PK-5).**
- ixtisasla bağlı müxtəlif layihələrin planlaşdırılması və icrasında iştirak etmək **(PK-6);**
- ixtisasla bağlı aşağıdakı bilik, bacarıq və səriştələrə yiyələnmək **(PK-7)**.

# 3. “ Moda dizaynı " ixtisası üzrə təhsilin məzmununa və səviyyəsinə qoyulan minimum tələblər

Humanitar və baza modulları bölümünə daxil olan modullar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.03.2019-cu il tarixli, 85 №-li qərarı ilə təsdiq olunmuş «Peşə təhsilinin dövlət standartları»nda əks olunan “ömürboyu təhsil” prinsipinə uyğun müəyyənləşdirilmişdir.

Humanitar və baza modulları bölümü üzrə təhsilalan “ömürboyu təhsil” prinsipinə uyğun olaraq aşağıdakı bilik və bacarıqlar əldə edəcəkdir:

- ixtisas üzrə peşə fəaliyyətini təmin edən ana dilində və xarici dildə yazılı və şifahi ünsiyyət qurmaq üçün nəzəri və təcrübi biliklərə malik olmalı;
- ixtisas üzrə qazanılmış biliklərdən istifadə etməli;
- informasiyanın toplanması və emalında müasir üsullardan istifadə etməli, müxtəlif hesablamaları aparmalı;
- ixtisas sahəsinin əsas problemlərini dərk etmək, onların konkret tətbiq sahələrini bilməli;
- peşə fəaliyyəti dairəsinə aid olan məlumatların işlənilməsi və saxlanılmasında kompüter texnologiyasından istifadə etməli;
- peşə fəaliyyətində sahibkarlıq düşüncəsini və ideyalarını əsas götürməli;
- peşə fəaliyyətində peşənin tələb etdiyi işgüzar etika və davranış qaydalarına əməl etməli;
- peşə fəaliyyətində “ömürboyu” öyrənmə prinsiplərini rəhbər tutaraq şəxsi inkişafa və düzgün karyera planlamasını əsas götürməlidir.

İxtisas üzrə baza biliklərinin formalaşmasına imkan verəcək aşağıdakı modulların tədrisi də bu bölümdə icra edilir (məs. Layihə İdarə edilməsi, İstehsalatın İdarə edilməsi və s.). Bu təhsilalana texniki biliklərin formalaşması, həmçinin gələcək iş prosesində müəyyən idarəçilik funksiyalarının icrası üçün tələb olunan səriştələrin əldə edilməsinə istiqamətlənir.

## 3.1 İxtisas üzrə modul və fənn bölümləri, modul və fənn mənimsənilməsi (təlim) nəticələri (bilik, bacarıq və yanaşma baxımından) və kreditləri, qazanılması nəzərdə tutulan kompetensiyaların kodları:

### 3.1.1 Ümumtəhsil fənlər bölümü:

Ümumtəhsil fənlərin bölməsinə daxil olan fənlər 29 mart 2019-cu il 1532-VQ nömrəli “Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının Qanunun və “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları” haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 29 sentyabr tarixli 361 nömrəli Qərarının tələblərinə uyğun müəyyənləşdirilmişdir.

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda tədrisin birinci ilində ümumtəhsil fənləri tədris olunduğu üçün kredit sisteminə daxil edilmir.

| **Fənn bölümünün kodu** | **Fənlərin adı** | **Saat miqdarı (həftəlik)** |
|---|---|---|
| ÜF-B01 | Azərbaycan dili | 3 |
| ÜF-B02 | Xarici dil | 4 |
| ÜF-B03 | Riyaziyyat | 4 |
| ÜF-B04 | Fizika | 1 |
| ÜF-B05 | Kimya | 1 |
| ÜF-B06 | Ədəbiyyat | 1 |
| ÜF-B07 | Azərbaycan tarixi | 2 |
| ÜF-B08 | Coğrafiya | 1 |
| ÜF-B09 | Ümumi Tarix | 1 |
| ÜF-B10 | Biologiya | 1 |
| ÜF-B11 | İnformatika | 3 |
| ÜF-B12 | Fiziki tərbiyə | 2 |
| ÜF-B13 | Çağırışaqədərki hazırlıq | 2 |
| ÜF-B14 | İkinci xarici dil | 2 |
| İT - B01 | Praktiki laboratoriya dərsləri / istehsalat təlimi | 7 |
| **Cəmi:** | | **35** |
| Qeydlər: | | |
| Ümumtəhsil fənləri tədris olunduğu halda, həmin fənlərə kreditlər ayrılmır. Tədris müddəti 38 həftə (18/20) davam edir. | | |

Ümumi orta təhsil bazasından qəbul olunmuş qruplarda peşə təhsilinin dövlət standartında göstərilmiş “Ana dilində ünsiyyət” səriştəsi “Azərbaycan dili”, “Xarici dildə ünsiyyət” səriştəsi “Xarici dil”, “İnformasiya texnologiyaları” səriştəsi “İnformatika”, “Hesablama əməliyyatlarını yerinə yetirmə” səriştəsi isə “Riyaziyyat” fənni proqramına inteqrasiya olunmuş şəkildə, həmçinin ixtisasın tələbləri nəzərə alınmaqla uyğunlaşdırılmış proqram əsasında tədris edilir.

“Xarici dil” və “İnformatika” fənnin tədrisi tələbələrin sayı 15 (on beş) və daha çox olan qruplarda müvafiq maddi-texniki baza və ixtisas müəllimləri olduğu halda 2 (iki) qrupa bölünərək aparılır.

“Xarici dil” fənnində tədrisi nəzərdə tutulan xarici dilin seçimi zamanı tədris qruplarında təhsil alan tələbələrin mütləq çoxluğu nəzərə alınaraq ümumtəhsil pilləsində təhsil aldıqları “əsas xarici dil” əsas götürülür.

Praktiki laboratoriya dərsləri və ya istehsalat təlimi tədrisi təhsil müəssisəsi tərəfindən laboratoriya və emalatxana şəratinə əsasən tədris edilir.

İxtisasın tələbinə uyğun olaraq ikinci xarici dilin tədrisi aparılmadıqda onun saatları əsas xarici dilə verilir.

**3.1.2 Kadr hazırlığı üçün tələb olunan modul və fənn bölümü:**

| Modul / Fənn | Təlim nəticəsi | Mənimsənilmə nəticələri | | | Modullar üzrə kreditlərin sayı | Kompetensiyaların kodları |
|---|---|---|---|---|---|---|
| | | Bilik | Bacarıq | Yanaşma | | |
| **Təhsil hissəsi** | | | | | | |
| **HBM – B00** | **Humanitar və baza modullar bölümü**<br>Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr: | | | | | |
| **HBM–B01**<br>Azərbaycan tarixi | | - Azərbaycan tarixinin əsas mərhələləri və xronologiyası barədə təsəvvürə, müstəqillik yolunda qazandığı nailiyyətlər, tarixi şəxsiyyətlər və əsas tarixi hadisələr haqqında məlumata malik olmalı; | Tarixi inkişaf mərhələlərini müqayisə və təhlil etməyi, tarixin qiymətləndirilməsinə dair öz mövqeyini əsaslandırmağı və fikrini ifadə etməyi. | | **5** | **ÜK-1 ÜK-2 ÜK-5** |
| **HBM–B02**<br>Azərbaycan dilində işgüzar və akademik kommunikasiya | | - Azərbaycan Respublikasının dövlət dilini sərbəst bilməli, nitqin düzgünlüyü, aydınlığı və dəqiqliyi naminə sözləri düzgün tələffüz etməyi; | Azərbaycan dilinin leksikonundan peşə fəaliy-yətində istifadə etməyi, dil qaydalarına uyğun danışmağı və yazmağı, rəsmi və işgüzar üslubda yazmağı və danışmağı; | | **4** | **ÜK-7**<br>**ÜK-3**<br>**ÜK-4**<br>**ÜK-11** |
| **HBM-B03 / B04 / B05** | | - İnformasiya texnologiyalarından | - İnformasiya texnologiyalarından | İKT, sosial media və digər proqram | **6** | **ÜK-9**<br>**PK-2 ÜK-13** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| İnformasiya texnologiyaları | | istifadə etməklə ixtisas aid məlumat, əldə etmək və tətbiqi imkanlarını; | təhlükəsiz şəkildə istifadə etməyi və rəqəmsal məzmun yaratmağı, müvafiq sosial media vasitələrindən istifadə etməyi; | təminatlarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | | |
| **HBM-B06 / B07 / B08 / B09** Xarici dildə işgüzar və akademik kommunikasiya | | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı oxuyub başa düşməyi; | - Xarici dildə olan ixtisasa aid ədəbiyyatı lüğətlə tərcümə et-məyi, tərcümeyi-hal və digər rəsmi sənədləri xarici dildə tər-tib etməyi, xarici dildə yazılı və şifahi ünsiyyət qurmağı; | Xarici dildə olan material-lardan peşə fəaliyyətində istifa-də etmək vərdişlərinə. | **12** | **ÜK-1 ÜK-8 ÜK-13** |
| **HBM-B10 / B11** Texniki hesab | | - Məsələlərin həllində riyazi düşüncə nümayiş etdirməyi, və peşə fəaliyyəti ilə bağlı riyazi düşüncəni tətbiq etməyi; | - İxtisas uyğun müvafiq hesablamalar aparmağı, qrafik və cədvəlləri hazırlamaq və istifadə etməyi, təsviri statistikadan istifadə etməyi; | Riyazi yanaşma və metodlardan peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **4** | **ÜK-2 PK-3** |
| **HBM-B12** Şəxsi inkişaf və karyera planlaması | | - Fərdi özünü inkişaf və karyera planlaması üzrə yanaşma və tətbiqləri başa düşməyi; | - Karyera məqsədlərini müəyyən etməyi, karyera inkişafında müasir işaxtarma və müraciət üsullarından istifadə etməyi; | Fərdi və karyera inkişafı üçün müasir planlama və tətbiq mexanizmlərindən istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-6 ÜK-10** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **HBM-B13** Layihə idarə edilməsi | | - Layihələrin hazırlanması, idarə edilməsi və monitorinqi mərhələlərini izah etməyi və fəaliyyətlərin düzgün planlaması tətbiq etməyi; | - Müxtəlif ölçülü layihələrin idarə edilməsi üçün layihə planlaması və idarə edilməsi üzrə alət və üsullardan istifafə etməyi; | Layihə planlanması və idarə edilməsi üzrə müasir yanaşma və vərdişlərə | **3** | **PK-6** |
| **HBMS–B00** | **Seçmə modullar*** | | | | | |
| **HBMS-B01** Etika və estetika (İşgüzar Etika) | | - Peşəkarlıq prinsipləri və iş yerində davranış qaydalarını; | - Peşəkarlıq prinsipləri və komanda ilə səmərəli işləməni, vaxtdan səmərəli istifadə etməyi, iş yerində davranış qaydalarına əməl etməyi; | Peşəkarlıq və səmərli iş prinsiplərini, iş yerində düzgün davranış qaydalarından peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |
| **HBMS-B02** Estetika və Mədəni İfadə | | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını başa düşməyi;- | - Kreativlik və estetika anlayışlarını, etiket və nəzakət qaydalarını təhlil edərək onlardan istifadə etməyi; | Peşə fəaliyyətində etiket bə nəzakət qaydalarından istifadə etmək vərdişlərinə. | **3** | **ÜK-1 ÜK-3 ÜK-4 ÜK-5** |
| **HBMS-B03** STEM | | - STEAM Mühəndislik və Dizaynın əsasları;<br>- 3D qələm, 3D CAD Modelləşdirməyə girişi; | - 3D qələm və 3D CAD modelləşdirmə ilə müxtəlif obyektlərin dizaynını;<br>- Mikrobit ilə robototexnika proqramlaşdırma | STEAM Mühəndisliyi, CNC lazer və Dron texnologiyası üzrə müxtəlif praktiki vərdişlərə. | **3** | **ÜK-9 ÜK-13 PK-2** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | - Mikrobit ilə Robototexnika - proqramlaşdırmaya girişi;<br>- CNC lazer texnologiyasına girişi;<br>Dron texnologiyasının əsaslarını. | əsasında müxtəlif layihələrin proqramlaşdırılması;<br>- CNC lazer texnologiyası əsasında müxtəlif obyekt düzəldilməsini;<br>- Dron texnologiyası üzrə müəyyən fəaliyyətləri. | | | |
| **HBMS-B04** Sahibkarlığın əsasları və biznesə giriş | | - Sahibkarlıq düşüncəsi və yanaşmalarını və onların peşə fəaliyyətində tətbiqi imkanlarını başa düşməyi; | - Peşə fəaliyyəti üzrə tətbiq edilə bilən sahibkarlıq ideyalarını müəyyən etməyi, biznes planlar hazırlamağı və biznes planları təhlil edərək onları tətbiq etməyi; | Peşə fəaliyyətində sahibkarlıq düşüncəsi və sahibkarlıq istiqamətində planlar hazırlama və tətbiq etmək vərdişlərinə. | **3** | **PK-1**<br>**PK-6** |
| **HBMS-B05** İstehsalatın idarə edilməsi | | - İxtisasına aid istehsalat sahələrinin əsas idarəetmə prinsip və mexanizmlərini başa düşməyi; | - Peşə fəaliyyətindən asılı olaraq istehsalatın planlanması və idarə edilməsi ilə bağlı prinsipləri düzgün formada tətbiq etməyi; | İxtisasa aid istehsalatın idarə edilməsinin əsas prinsiplərinin peşə fəaliyyətində istifadə etmək vərdişlərinə. | **3** | **PK-1**<br>**PK-6** |

| Modul / Fənn | Təlim nəticələri | Qiymətləndirmə meyarları | Modullar üzrə kreditlərin sayı | Kompetensiya kodları |
|---|---|---|---|---|
| **MD-İM-B00** | **İxtisas peşə hazırlığı modulları bölümü** | | | |
| | **Bu bölümə daxil olan modulların öyrənilməsi nəticəsində subbakalavr:** | | | |
| **MD-İM-B01 Tikiş I** | 1. Parçaların növlərini, xassələrini və tikiş istehsalında istifadə olunan materialları, tikiş məmulatlarını bilir, müxtəlif növ geyim nümunələrinə uyğun uğurlu parça seçimi etməyi bacarır. | 1. Parçaların növlərini sadalayır. | **4** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Tikiş istehsalında istifadə olunan materialları sadalayır. | | |
| | | 3. Tikiş məmulatlarının təsnifatı və onlara qoyulan tələbləri izah edir. | | |
| | | 4. Müxtəlif növ geyim modelinə uyğun parça seçimi edir. | | |
| | 2. Tikişin növləri və formalarını, tikiş istehsalatında istifadə edilən alət və avadanlıqları və onların təhlükəsizlik qaydalarını bilir. | 1. Təhlükəsizlik qaydalarını tətbiq edir. | | |
| | | 2. Tikiş, tikişin növləri və formalarını təsvir edir. | | |
| | | 3. Tikiş istehsalatında istifadə edilən əsas alətləri sadalayır. | | |
| | | 4. Əl tikişləri və onların növlərini icra edir. | | |
| | | 5. Tikiş istehsalatında istifadə edilən köməkçi alətləri sadalayır. | | |
| | | 6. Biçim otağında istifadə olunan maşın və alətlərin istifadə qaydalarını izah edir. | | |
| | 3. Tikiş müəssisələrində istifadə olunan tikiş maşınlarının növlərini bilir, | 1. Tikiş maşınlarının rolunu izah edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | onların iş üsullarını və maşınlardan istifadə etməyi, maşın tikişlərinin növlərini, İNƏ (isti nəmləndirmə əməliyyatlarını) və ordakı texniki təhlükəsizlik qaydalarını icra etməyi bacarır. | 2. Tikiş maşınlarının əsas elementlərini fərqləndirir. | | |
| | | 3. Tikiş müəssisələrində istifadə olunan avtomatlardan istifadə edir. | | |
| | | 4. Maşınların seçiminda nəzərə alınmalı olan məsələləri aydınlaşdırır. | | |
| | | 5. Maşın tikişlərinin növərini icra edir. | | |
| | | 6. İNƏ həyata keçirir. | | |
| | | 7. İNƏ-da texniki təhlükəsizlik qaydalarını tətbiq edir. | | |
| | 4. Bədən quruluşunun tiplərini, ölçü götürmə qaydalarını bilir, ölçü götürməyi, biçim işlərini həyata keçirməyi, müxtəlif sadə məmulatları tikməyi və ütüləməyi bacarır. | 1. Bədən quruluşunun tiplərini şərh edir | | |
| | | 2. Ölçü götürmə texnikasını təsvir edir. | | |
| | | 3. Biçim işlərini icra edir. | | |
| | | 4. Sadə məmulatlar tikir. | | |
| **MD-İM-B02 Moda və geyim tarixi** | 1. Antik dövrdən başlayaraq 20-ci əsrə qədərkii global və yerli geyim tərzlərini, geyim modasında tarixi dəyişiklikləri və inkişaf tarixini bilir. | 1. Antik dövr incəsənət tarixindəki geyim mədəniyyətini təhlil edir. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Antik Misir, Babil və Assuriya geyim mədəniyyətlərini izah edir. | | |
| | | 3. Krit, Mikena, Antik Yunan geyim mədəniyyətini bilir. | | |
| | | 4. Bizans, İntibah, barokko və rokoko dövrü geyim mədəniyyətini izah edir. | | |
| | | 5. Reformasiya dövrünün modasını izah edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 6. Modern dövrün, o cümlədən iki dünya müharibələri arasındakı dəbi bilir. | | |
| | 2. Dövrlərə uyğun geyim tərzlərinin zamanla dəyişməsini və qarşılıqlı təsirini, moda axının nəzərəiyyələrini və mərhələlərini bilir. | 1. Tarixi geyimləri müxtəlif sosial və tənqidi perspektivlərdən qiymətləndirir. | | |
| | | 2.  Tarixi geyimləri müxtəlif siyasi və tarixi perspektivdən qiymətləndirir. | | |
| | | 3. Dəb prosesinin nəzəriyyələrini izah edir. | | |
| | 3. Fərqli mədəniyyətlərin həyat tərzinin moda tarixinə təsrini və dünya xalqlarının ənənəvi geyim mədəniyyətini bilir və onları müqayisə etməyi bacarır. | 1. Avropa xaqlarının ənənəvi xalq geyimlərini izah edir. | | |
| | | 2. Amerika xalqlarının ənənəvi geyimlərini sadalayır. | | |
| | | 3. Asiya xalqlarının ənənəvi geyimlərini bilir. | | |
| | | 4. Türk xalqlarının ənənəvi geyimlərini izah sadalayır. | | |
| | | 5. Müxtəlif xalqların geyim mədəniyyətlərini müqayisə edir. | | |
| | 4. Moda geyim tərzlərini (stillərini) və inkişaf tarixlərini bilir. | 1. Feminin geyim tərzi şərh edir. | | |
| | | 2. Maskulin geyim tərzini izah edir. | | |
| | | 3. Qotik geyim tərzini izah edir. | | |
| | | 4. Boho geyim tərzini izah edir. | | |
| | | 5. Retro və vintaj geyim tərzlərini şərh edir. | | |
| | 5. Geyimi tarixini forma və material baxımından araşdırmağı, geyim və aksessuarlar arasında əlaqə yaratmağı, onları mədəni dəyərlər baxımından müaqayisə etməyi bacarır. | 1. Modanın əhatə dairəsini izah edir. | | |
| | | 2. Dəb prosesinin mərhələlərini sadalayır. | | |
| | | 2. Dəb nəzəriyyələrini, dəb dövrü və dəb prosesini müqayisə edir. | | |
| | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **MD-İM-B03 Parça və tikiş məmulatları** | 1. Liflər, tekstil lifləri, saplar, onların təsnifatı və xassələrini, təbii və kimyəvi, regenerasiya olunmuş lifləri bilir. | 1. Liflər, saplar və onların xassələrini sadalayır. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Tekstil liflərini təsnif edir. | | |
| | | 3. Renegerasiya olunmuş lifləri izah edir. | | |
| | | 4. Təbii liflər və onların xarakteristikasını sadalayır. | | |
| | | 5. Heyvan mənşəli liflərin xassələrini izah edir. | | |
| | | 6. Kimyəvi liflər və onların növlərini izah edir. | | |
| | 2. İplik, ipliyin xassələrini və ipliyin istehsal prosesini bilir. | 1. İplik və onun xassələrini izah edir. | | |
| | | 2. İpliyin tərkibinə görə növlərini sadalayır. | | |
| | | 3. İpliyin istifadə yerinə görə növlərini sadalayır. | | |
| | | 4. İpliyin əmələ gəlmə prosesini izah edir. | | |
| | 3. Parça və parçanın növlərini, tikiş saplarını bilir, onların tikiş prosesində istifadə üsullarını tətbiq etməyi bacarır. | 1. Parça, parça çeşidləri və parça materiallarını şərh edir. | | |
| | | 2. Tikiş məmulatı istehsalında istifadə olunan parçaların tərkibi və növlərini fərqləndirir. | | |
| | | 3. Toxunan və toxunmayan parçaları fərqləndirir. | | |
| | | 4. Parçanın fiziki-mexaniki xassələrini izah edir. | | |
| | | 5. Tikiş saplarını izah edir. | | |
| | 4. Geyimlərin hazırlanması üçün lazım olan bütün əsas (parça) və köməkçi materialları (araqatı, astar, | 1. Geyimin hazırlanması üçün istifadə olunan əsas və köməkçi materialları fərqləndirir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | ip, düymə, zəncirbənd və s.) bilir və geyimə uyğun tikiş məmulatlarını seçməyi bacarır. | 2. Bəzək materialları və onun növlərini sadalayır. | | |
| | | 3. Furnituraları sadalayır. | | |
| | | 4. Araqatı və astarlıq materialları seçir. | | |
| | | 5. Tikiş istehsalından istifadə olunan digər köməkçi vasitələri sadalayır. | | |
| | | | | |
| **MD-İM-B04 Tekstil texnologiyaları** | 1. Tekstil istehsalatı xammallarını, tekstil materiallarını və onların istehsal texnologiyalarını bilir. | 1. Tekstil texnologiyası və texnoloji prosesləri sadalayır. | **4** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Kimyəvi və mexaniki formada aparılan texnoloji prosesləri fərqləndirir. | | |
| | | 3. Tekstil sənayesində istehsalatın növlərini sadalayır. | | |
| | | 4. Tekstil sənayesində işlədilən əsas xammal növləri və onların xarakteristikasını izah edir. | | |
| | 2. Toxuculuqda istifadə olunan liflər və onların təsnifatını, fiziki, mexaniki, kimyəvi xüsusiyyətlərini və istehsal texnologiyalarını bilir. | 1. Lif, liflərin xüsusiyyətlərini və lif istehsalı prosesini şərh edir. | | |
| | | 2. Bitki mənşəli lifəri sadalayır. | | |
| | | 3. Heyvan mənşəli lifləri sadalayır. | | |
| | | 4. Mineral mənşəli lifləri sadalayır. | | |
| | | 5. Süni mənşəli lifləri şərh edir. | | |
| | | 6. Sintetik liflərin istehsal texnologiyaları və xassələrini sadalayır. | | |
| | | 7. Liflərin fiziki və kimyəvi xassələrini izah edir. | | |
| | 3. Tekstil texnologiyasında pambıq, kətan, yun, ipək, süni və sintetik | 1. Xam pambığın ilkin emalı proseslərini izah edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | liflərin istehsalı proseslərini bilir, müxtəlif üsullarla alınması prosesini həyata keçirməyi bacarır. | 2. Pambığın əyirilməsi proseslərini sadalayır. | | |
| | | 3. Kətan lifin ilkin emalı prosesini izah edir. | | |
| | | 4. Yun lifin ilkin emalı prosesini sadalayır. | | |
| | | 5. İpək lifinin emal prosesini izah edir. | | |
| | | 6. Süni liflərin alınması prosesini izah edir. | | |
| | | 7. Sintetik liflərin alınması prosesini izah edir. | | |
| | 4. Parça əmələ gəlməsi prosesini bilir, tekstil məmulatları istehsalı proseslərindən və avadanlıqlarından istifadə etməyi bacarır. | 1. Parçaların texnoloji xassələrini və istehsal proseslərini izah edir. | | |
| | | 2. Parçanın toxucu dəzgahda əmələ gəlmə prosesini həyata keçirir. | | |
| | | 3. Toxucu dəzgahlarının əsas işçi orqanlarını və parçanın formalaşdırılması proseslərini sadalayır. | | |
| | | 4. Parçaları təsnif edir və çeşidlərini ayırd edir. | | |
| | | 5. Trikotajın quruluşu və xarakteristikasını sadalayır. | | |
| | | 6. Trikoltaj istehsalını izah edir. | | |
| | | 7. Parçanın merserizə prosesini təşkil edir. | | |
| | | | | |
| **MD-İM-B05 Texniki rəsm (ixtisas üzrə)** | 1. Moda və tekstil dizaynında texniki rəsmin əsas prinsiplərini və onun istifadə qaydalarını bilir. | 1. Moda sənayesində texniki rəsmin əhəmiyyəti və istifadə sahələrini izah edir. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5** |
| | | 2. Texniki rəsmin əsas prinsiplərini sadalayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Texniki rəsm çertyojları çəkmək üçün lazımı alət və avadanlıqlardan istifadə edir. | | **PK-6**<br>**PK-7** |
| | | 4. Geyim detalları və geyimin əsasını təşkil edən texniki çertyojları izah edir. | | |
| | 2. Texniki rəsmdə ölçü cədvəlləri və onların izahını, geyimdə ölçmə yerlərini və təsvirlərini bilir. | 1. Texniki rəsmdə ölçü cədvəllərini sadalayır. | | |
| | | 2. Hazır geyimin texniki rəsmini çəkir. | | |
| | | 3. Seçilmiş geyim nümunəsinin texniki rəsmini hazırlayır. | | |
| | 3. Müxtəlif növ məhsulların, modelin xüsusiyyətinin detallarını, tikiş üsulunu bilir və tikiş növlərini çəkməyi bacarır. | 1. Müxtəlif ətək nümunəsinin texniki rəsmini çəkir.. | | |
| | | 2. Şalvar nümunələrinin texniki rəsmini çəkir. | | |
| | | 3. Müxtəlif köynəklərin texniki rəsmini çəkir. | | |
| | | 5. Müxtəlif don nümunələrinin texniki rəsmini çəkir. | | |
| | | 6. Müxtəlif modelli pencək və jaket nümunələrinin texniki rəsmini çəkir. | | |
| | | 7. Uşaq geyimlərinin texniki rəsmini çəkir. | | |
| | | | | |
| **MD-İM-B06 Paltar ülgülərinin dizaynı və hazırlanması I** | 1. İnsan bədən quruluşu xüsusiyyətlərini, eskiz xətlərini bilir və onları çəkəyi bacarır. | 1. Bədən quruluşunun tiplərini sadalayır. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3**<br>**PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | | 2. Bədən quruluşunun proporsiyalarını müəyyən edir. | | |
| | | 3. Müxtəlif insan fiqurları çəkir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 4. İnsan fiqurunu eskizdə təsvir edir. | | |
| | 2. Ölçü sistemləri və ölçmə qaydalarını bilir, qadın, kişi və uşaq bədən tipləri üzərində ölçü texnikasını tətbiq etməyi bacarır. | 1. Antropometrik nöqtələri izah edir. | | |
| | | 2. Standart ölçü cədvlərini izah edir. | | |
| | | 2. Ölçmə alətləri və bədən ölçmə qaydalarını sadalayır. | | |
| | | 3. Əsas və köməkçi ölçülərdən istifadə edir. | | |
| | | 4. Bədən quruluşundan asılı olaraq ölçmə texnikalarından istifadə edərək ölçü götürür. | | |
| | 3. Geyimin dizayn edilməsi və hazırlanması qaydalarını, ülgü hazırlama mərhələlərini bilir, geyimi konstruksiya etməyi və ülgü nümunələri hazırlamağı bacarır. | 1. Geyimin dizayn edilməsi və hazırlanması qaydaları | | |
| | | 2. Konstruksiya etmə mərhələlərini sadalayır. | | |
| | | 3. Konstruksiya sistem və metodlarını izah edir. | | |
| | | 4. Ülgülərin növlərini və materiallarını təsvir edir. | | |
| | | 5. Çertyoju hazırlayır və ülgülər üzərində düzəlişlər edir. | | |
| | | 6. Ülgülərə lazımı simvol və işarələri tətbiq edir. | | |
| | 4. Müxtəlif növ ətək və don məhsulları üçün geyim nümunələrinin hazırlanması qaydasını bilir və ətəkdə ülgülər hazırlamağı bacarır. | 1. Düz biçimli əteyin konstruksiya çertyojunu qurur. | | |
| | | 2. Müxtəlif növ ətək nümunələrinin çertyojlarını hazırlayır. | | |
| | | 3. Əsas don modelinin konstruksiya çertyojunu qurur. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 4. Müxtəlif növ don nümunələrinin çertyojunu hazırlayır. | | |
| | 5. Müxtəlif növ köynək və kofta kimi üst geyim məhsulların üçün ülgü nümunələri hazırlamağı bacarır. | 1. Köynəklərin konstruksiya çertyojunu yaratmaq üçün bədəndən lazımi ölçüləri götürür. | | |
| | | 2. Köynək çertyojlarını hazırlayır. | | |
| | | 3. Müxtəlif növ yaxalıqların konstruksiya çertyojları hazırlayır. | | |
| | | 4. Müxtəlif qol modellərini konstruksiya edir. | | |
| | | | | |
| **MD-İM-B07 Moda dizaynına giriş** | 1. Moda dizaynı, onun məzmununu, konsepsiyasını və prinsiplərini bilir. | 1. Moda dizaynının konsepsiyası və məzmunu izah edir. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Dizayn elementləri (nöqtə, xətt, faktura, forma, rəng, perspektiv, dəyər, siluet) sadalayır. | | |
| | | 3. Əsas dizayn prinsiplərini (bütövlük, ritm, hərəkət, balans, vurğu) və onların moda sahəsinə tətbiqini izah edir. | | |
| | | 4. Paltarın dizayn prosesinin mərhələlərini sadalayır. | | |
| | | 5. Moda dizaynına təsir edən amilləri (bədən, parça, material, məkan, məqsəd, sosial mühit və s.) şərh edir. | | |
| | 2. Dizayn tədqiqatları və kolleksiyaları haqqında məlumat əldə etməyi və fərdi şəkildə dizayn tədqiqatları aparmağı bacarır. | 1. Moda sənayesinə girişin əsası sayılan bazar seqmentlərini, trend sistemini və müxtəlif dizayn işlərini araşdırır. | | |
| | | 2. Fərqli dizayn nümunələrini analiz edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Xarici modelyerlərin kolleksiyalarını dizayn prinsiplərinə və metodlarına uyğun qiymətləndirir. | | |
| | | 4. Yerli modelyerlərin kolleksiyalarını dizayn prinsiplərinə və metodlarına uyğun qiymətləndirir. | | |
| | 4. Vizual dizayn prinsipləri və elementlərini bilir, açıq və tünd tonlama işləri, rəng məlumatı, müxtəlif rəng tonları ilə kompozisiya hazırlamağı bacarır. | 1. Vizual dizayn prinsiplərini və elementlərini sadalayır. | | |
| | | 2. Dizaynda rənglər və onların əhəmiyyətini izah edir. | | |
| | | 3. Rəng və rəng çarxında əsas anlayışları sadalayır. | | |
| | | 4. Tonlama işləri, açıq, tünd, kölgə tonlama əməliyyatlarını icra edir. | | |
| | 5. İnsan anatomiyasını bilir, ölçülər götürməyi, ideyadan məhsulun hazırlanıb təhvil verilməsi mərhələlərini icra etməyi bacarır. | 1. İnsan anatomiyasını izah edir. | | |
| | | 2. Müxtəlif ölçü nümunələri götürür. | | |
| | | 3. Hədəf auditoriyasını araşdırır. | | |
| | | 4. Düzgün materialı seçir və məmulatı hazırlayır. | | |
| | | | | |
| **MD-İM-B08 Tikiş II** | 1. Sifariş qəbul etməyi və sifarişə uyğun tələb olunan forma və ölçülər götürməyi bacarır. | 1. Sifariş qəbul edir. | **4** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Qadın bədəninin ölçülərini götürür. | | |
| | | 3. Kişi bədən ölçülərini götürür. | | |
| | | 4. Müxtəlif yaşda uşaq ölçüləri götürür. | | |
| | 2. Tikiş istehsalını təşkil etməyi, tikiş məmulatlarının hazırlanması üçün | 1. Tikiş məmulatlarının konstruksiyasının sistem və metodlarını müəyyən edir. | | |
| | | 2. Bədən quruluşunun tiplərini seçir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | konstruksiyanın sistem və metodlarını bilir və ölçü cədvəlini qurmağı bacarır. | 3. Fərdi və kütləvi istehsalatda ölçülərin götürülməsi və şərti işarələrlə yazılma qaydasını tətbiq edir. | | |
| | | 4. Ölçmə işini dəqiq aparmaqla ölçü cədvəlini qurur. | | |
| | 3. Ülgüləri hazırlamağı və bacarır. | 1. Bel məmulatlarının konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. | | |
| | | 2. Çiyin məmulatlarının konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. | | |
| | | 3. Üst geyimlərinin konstruksiya çertyojunu qurmaqla ülgüləri hazırlayır. | | |
| | | 4. Ülgülərin növlərini və hazırlanması üçün lazımi materialları təsvir edir. | | |
| | | 5. Ülgülərin standartlara uyğunluğunu müəyyən etməklə texniki artırılma üsullarını izah edir. | | |
| | 4. Məmulatın ayrı ayrı hissələrini tikməyi bacarır. | 1. Cibləri tikir. | | |
| | | 2. Kəmər hissəni tikir. | | |
| | | 3. Körpünü tikir. | | |
| | | 4. Yaxalıqları tikir. | | |
| | | 5. Bağlamaları hazırlayır. | | |
| | 5. Müxtəlif növ tikiş məmulatlarını hazırlamağı bacarır. | 1. Ətəklikləri tikir. | | |
| | | 2. Şalvarların müxtəlif modellərini tikir. | | |
| | | 3. Müxtəlif növ qadın paltarları tikir. | | |
| | | 4. Üst geyimlərini tikir. | | |
| | 6. Tikiş maşınlarını idarə etməyi və onların kiçik təmirini aparmağı bacarır. | 1. Düz tikişli məkik toxunmalı tikiş maşınları idarə edir. | | |
| | | 2. Tikiş maşınlarının texnoloji xarakteristikasını izah edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Tikiş maşınlarını idarə edən zaman tikişdə yaranan nöqsanları aradan qaldırır. | | |
| | | 4. Zəncirvarı toxumalı tikiş maşınlarını idarə edir. | | |
| | | | | |
| **MD-İM-B09 Model dizaynı və hazırlanması I** | 1. Moda dizaynı ilə bağlı materiallar, üsul və üslubları bilir, bədən tiplərini tanımağı bacarır. | 1. Moda dizaynı ilə bağlı əsas və köməkçi materialları sadalayır. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Moda dizaynında üsul və üslubları izah edir. | | |
| | | 3. Moda trendlərini analiz edir. | | |
| | | 4. Model dizaynı və hazırlanmasının əsas mərhələlərini sadalayır. | | |
| | 2. Fərqli materiallardan istifadə edərək mövzunu müəyyən etməyi, dizayn lövhəsini hazırlamağı bacarır. | 1. Mövzunu müəyyən edir. | | |
| | | 2. Müəyyən edilmiş mövzuya uyğun dizayn lövhəsi hazırlayır. | | |
| | | 3. Xərc hesablaması edir. | | |
| | | 4. Texniki rəsm siluetini seçir və seçilmiş mövzuya uyğun olaraq dizayna başlayır. | | |
| | 3. Sadə modellərdə əsas hissələri yaratmağı və seçilmiş modelin bədii və texniki çertyojlarını çəkməyi, rəng seçimi etməyi bacarır. | 1. Modelin bədən ölçülərini qeyd edir. | | |
| | | 2. Yaxalıq, cib və qol modellərini qeyd edir. | | |
| | | 3. Yaxa formalarını çəkir. | | |
| | | 4. Seçilmiş modellərin bədii və texniki çertyojlarını çəkir. | | |
| | | 5. Hazırlanacaq model üçün rəng seçimi edir. | | |
| | 4. Modelə uyğun aksesuarları çəkir və real məhsulu dizayn edir. | 1. Geyim modellərinə uyğun detalları vurğulayır. | | |
| | | 2. Seçilmiş modelin nümunəsini hazırlayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Dekor aksessuarları çəkir. | | |
| | | 4. Hazırlanmış nümunə modeli sınaqdan keçirir. | | |
| | | 5. Nümunə modeli təhlil edir və düzəlişləri əlavə edib yekun məhsulu hazırlayır. | | |
| | | | | |
| **MD-İM-B10 Model dizaynı və hazırlanması II** | 1. Seçilmiş mövzuya uyğun dizayn lövhəsi hazırlayır və modeli dizayn etməyi bacarır. | 1. Dizayn mövzusunu seçir. | **3** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. İstifadə ediləcək alət və avadanlıqları hazırlayır. | | |
| | | 3. Dizayn lövləsi hazırlayır. | | |
| | | 4. Modelin əsas hissələrini detallı çəkir. | | |
| | | 5. İstəyə uyğun qadın və kişi modelləri dizayn edir. | | |
| | 2. Modelin tamamlayıcı elementlərini (dekor və aksesuar) çəkməyi və seçilmiş modellərin əsas naxışını və model tətbiq nümunəsini hazırlamağı bacarır. | 1. Modelə uyğun aksesuarları çəkir. | | |
| | | 2. Dekorları düzgün seçir. | | |
| | | 3. Model inkişafı və modeldən model düzəltməyi bacarır. | | |
| | | 4. Aksesuar kolleksiyası ilə şəxsi üslub yaradır. | | |
| | | 5. Aksesuarların müxtəlif kombinasiyalarda istifadə nümunələrini hazırlayır. | | |
| | 3. Mürəkkəb modellər dizayn etməyi və hazırlamağı bacarır. | 1. Bədənin hərəkəti nəticəsində yaranan parça bükülmələrinin və qatlamalarını hazırlayır. | | |
| | | 2. Mürəkkəb modellərin bədii dizaynını hazırlayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 3. Mürəkkəb modellərin texniki dizaynını hazırlayır. | | |
| | | 4. Nümunə modeli hazırlayır. | | |
| | | 5. Hazırlanmış nümunə modeli sınaqdan keçirir. | | |
| | | 6. Nümunə modeli təhlil edir və düzəlişləri əlavə edib yekun məmulatı hazırlayır. | | |
| **MD-İM-B11 Drapaj (draper)** | 1. Drapaj, drapaj texnikasını  və drapaj texnikası ilə model hazırlayarkən tələb olunan materialları bilir. | 1. Drapajın əsas anlayışlarını izah edir. | **4** | **PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-6<br>PK-7** |
| | | 2. Drapaj texnikasını izah edir. | | |
| | | 3. Drapaj hazırlayarkən istifadə olunan əsas materialları izah edir. | | |
| | 2. Drapaj manekeni üzərində işləməyi, bədənin mütəlif hissələrində drapaj texnikasnı tətbiq edərək model dizaynlarını yaratmağı bacarır. | 1. Drapaj texnikası ilə ülgüləri hazırlayarkən istifadə olunacaq manekeni tanıyır. | | |
| | | 2. Drapaj texnikasını bədənin müxtəlif hissələrinə tətbiq edir. | | |
| | | 3. Ətək və köynək modellərini drapaj texnikası ilə hazırlayır. | | |
| | | 4. Don modellərini drapaj texnikası ilə hazırlayır. | | |
| | 3. Drapaj texnikası ilə hazırlanmış dizaynlar üçün iki ölçülü və üçölçülü naxışları hazırlamağı və naxışlara nəzarət etməyi bacarır. | 1. Simmetrik və asimmetrik modellərdə drapaj texnikasını tətbiq edir. | | |
| | | 2. Hazırlanan drapajın naxışa çevrilməsi, istehsal olunan naxışın parçaya tətbiqini icra edir. | | |
| | | 3. İkiölçülü naxışlar hazırlayır və tətbiq edir. | | |
| | | 4. Üçölçülü naxışlar hazırlayır və naxışlara nəzarət edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 5. Modeli tam hazır vəziyyətə gətirir. | | |
| | | | | |
| **MD-İM-B12 Paltar ülgülərinin dizaynı və hazırlanması II** | 1. Müxtəlif növ qadın şalvar nümunələri üçün ülgülər hazırlamağı və modeli tətbiq etməyi bacarır. | 1. Qadın şalvar nümunələrinin ülgülərini hazırlamaq üçün ölçü götürür. | **4** | **PK-1 PK-2 PK-3 PK-4 PK-5 PK-6 PK-7** |
| | | 2. Şalvar ülgüsü hazırlamaq və onların biçimə hazır olması üçün tələb olunan prosedurları icra edir. | | |
| | | 3. Müxtəlif növ və materialda olan şalvar ülgülərini hazırlayır. | | |
| | | 4. Qadın idman geyimləri ülgülərini hazırlayır. | | |
| | 2. Müxtəlif növ kişi şalvar nümunələrinin ülgüləini hazırlamağı və modeli tətbiq etməyi bacarır. | 1. Kişi şalvar nümunələrinin ülgülərini hazırlamaq üçün ölçü götürür. | | |
| | | 2. Şalvar ülgülərinin hazırlığı və onların biçimə hazır olması üçün tələb olunan prosedurları icra edir. | | |
| | | 3. Müxtəlif növ və materialdan olan şalvar nümunələri ülgülərini hazırlayır. | | |
| | | 4. Kişi idman geyimləri ülgülərini hazırlayır. | | |
| | 3. Kişi üst geyimlərinin ülgülərini hazırlamağı bacarır. | 1. Müxtılif növ kişi köynək ülgüləri yaratmaq üçün bədəndən lazımi ölçüləri götürür. | | |
| | | 2. Kişi köynək ülgüləri hazırlayır. | | |
| | | 3. Müxtəlif formalı yaxalıqların ülgüləri hazırlayır. | | |
| | | 4. Müxtəlif formalı qolların əsas ülgülərini hazırlayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | 4. Müxtəlif yaş qrupunda olan uşaq paltarlarının ülgülərini dizayn etməyi bilir və ülgüləri hazırlamağı bacarır. | 1. Uşaqların bədən anatomiyası izah edir. | | |
| | | 2. Uşaq geyimləri üçün ölçü nöqtələrinin qavranılması, ölçü götürülməsi və hesablanması əməliyyatlarını icra edir. | | |
| | | 3. Uşaq geyimlərinin ülgülərini hazırlayır. | | |
| | | 4. Körpə uşaq geyimlərinin ülgülərini hazırlayır. | | |
| | | | | |
| **MD-İM-B13 Paltarların tikilməsi və hazırlanması** | 1. Tikişin növləri və formalarını, tikiş istehsalında istifadə edilən alət və avadanlıqları, tikiş texnikalarını bilir, tikiş istehsalını təşkil etməyi və tikiş əməliyyatlarını icra etməyi bacarır. | 1. Tikişin forma və növlərini izah edir. | **5** | **PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-6<br>PK-7** |
| | | 2. Tikiş istehsalında istifadə edilən alət və avandanlıqları seçir. | | |
| | | 3. Tikiş texnikalarını sadalayır. | | |
| | | 4. Tikiş yerini təşkil edir. | | |
| | 2. Müxtəlif növ qadın ətəklərinin biçimini, tikişinin hazırlanması qaydasını və ardıcıllığını bilir, onları tikir, keyfiyyətinə nəzarət və son ütüləmə işlərini həyata keçirməyi bacarır. | 1. Müxtəlif növ ətək nümunələrinin biçimi texnikasını sadalayır. | | |
| | | 2. Tikişlərin hazırlanma ardıcığını müəyyən edir. | | |
| | | 3. Bel və kəmər hissəni hazırlayır. | | |
| | | 4. Aksesuarlar əlavə edir. | | |
| | | 5. Son tamamlama işlərini həyata keçirir. | | |
| | 3. Müxtəlif növ kişi və qadın şalvar nümunələrinin biçimini və tikişinin hazırlanması qaydasını və ardıcıllığını bilir, şalvarları tikməyi, keyfiyyətinə nəzarət və son tamamlama işlərini həyata keçirməyi bacarır. | 1. Şalvarın biçimini həyata keçirir. | | |
| | | 2. Tikişlərin hazırlanma ardıcığını müəyyən edir. | | |
| | | 3. Şalvarı tikir. | | |
| | | 4. Müxtəlif cib hissələrinin kəsimi və tikişini həyata keçirir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 5. Şalvarın bağlama və kəmər hissəni hazırlayır. | | |
| | | 6. Son tamamlama işlərini həyata keçirir. | | |
| | 4. Müxtəlif növ qadın və kişi köynəklərinin biçimi ardıcıllığını bilir, köynəkləri hazırlamağı və son ütüləmə işlərini həyata keçirməyi bacarır. | 1. Köynəyin biçimi ardıcıllığını və tikilmə qaydasını izah edir. | | |
| | | 2. Qadın köynəyini tikir. | | |
| | | 3. Kişi köynəyini tikir. | | |
| | | 4. Müxtəlif cib hissələrinin kəsimi və tikişini həyata keçirir. | | |
| | | 5. Son tamamlama işlərini həyata keçirir. | | |
| | 5. Müxtəlif növ qadın donlarının biçimini, tikişinin hazırlanması qaydasını və ardıcıllığını bilir, donları tikməyi, keyfiyyətinə nəzarət və son ütüləmə işlərini həyata keçirməyi bacarır. | 1. Müxtəlif modelli donları biçir. | | |
| | | 2. Kəsiklərin hazırlanma ardıcığını müəyyən edir. | | |
| | | 3. Məmulatı tikir. | | |
| | | 4. Lazımı hissələri (kəmər, cib, yaxalıq və s.) əlavə edir. | | |
| | | 5. Son tamamlama işlərini həyata keçirir. | | |
| | 6. Müxtəlif növ qadın və kişi pencəklərin kəsim, tikiş və keyfiyyətə nəzarət, son ütüləmə işlərini icra etməyi bacarır. | 1. Qadın və kişi pencəklərinin biçimi və tikimi texnikalarını sadalayır. | | |
| | | 2. Qadın pencəklərini tikir. | | |
| | | 3. Kişi pencəklərini tikir. | | |
| | | 4. Cib hissələrin kəsimi və tikimini həyata keçirir. | | |
| | | 5. Düyməmələmə əməliyyatlarını icra edir. | | |
| | | 6. Son tamamlama işlərini həyata keçirir. | | |
| | | | | |
| **MD-İM-B14 Tekstildə press və** | 1. Tekstil çapının əsas anlayışlarını və tekstil çapının əsas prinsiplərini bilir. | 1. Tekstil çapının əsas anlayışlarını sadalayır. | **3** | **PK-1**<br>**PK-2**<br>**PK-3** |

| | | | | |
|---|---|---|---|---|
| **çap texnologiyaları** | | 2. Çap parçalarının tətbiq sahələrini və üsullarını izah edir. | | **PK-4**<br>**PK-5**<br>**PK-6**<br>**PK-7** |
| | | 3. Naxışın çapa uyğunlaşdırılmasının texniki detallarını sadalayır. | | |
| | | 4. Tekstildə çap növlərini fərqləndirir. | | |
| | 2. Çap maşınları və çap üsullarını bilir və onlardan istifadə etməyi bacarır. | 1. Çap maşınlarını sadalayır. | | |
| | | 2. Tekstildə çap üsulları və növlərini izah edir. | | |
| | | 3. Çap texnikalarını tətbiq edir. | | |
| | | 4. Printeri çapa hazırlayır və çap maşını parametrlərini tətbiq edir. | | |
| | | 5. Parçanı maşına yerləşdirmə texnikasını tətbiq edir və çapa başlayır. | | |
| | | 6. Parça məlumatını maşına daxil edir. | | |
| | 3. Fiksasiya metodları və post-prosesləri bilir və fiksasiya və yuyulma prosesini icra etməyi bacarır. | 1. Fiksasiya prosesinin mahiyyətini və metodunu izah edir. | | |
| | | 2. Çap olunmuş hissəni fiksasiya maşınına yerləşdirir. | | |
| | | 3. Fiksasiya prosesi vasitəsilə boya ilə parça arasında əlaqə quraraq parçanın əsl rəngi ortaya çıxarır. | | |
| | | 4. Yuyulma əməliyyatlarını və müxətlif parçaların yuyulma texnikasını izah edir. | | |
| | 4. Tekstil çapında istifadə olunan boyalar, köməkçilər və | 1. Boyaq maddələrini sadalayır. | | |

| | | | | |
|---|---|---|---|---|
| | qatılaşdırıcılardan istifadə etməyi bilir, rəqəmsal çap ilə çap edilə bilən naxışlar dizayn etməyi, dizayn edilmiş nümunənin tətbiqini həyata keçirməyi bacarır. | 2. Boyanmış məhsulların açılması, yuyulması və qiymətləndirilməsi əməliyyatlarını icra edir. | | |
| | | 3. Tekstildə köməkçilər və qatılaşdırıcılardan istifadə edir. | | |
| | | 4. Çap texnikası ilə hazırlanmış işləri yoxlayır və çap nümunələri yaradır. | | |
| | | | | |
| **MD-İM-B15 Kompüterdə paltar ülgülərinin hazırlanması** | 1. Kompüterlərdə paltar ülgü nümunələri hazırlama proqramları, onların xüsusiyyətlərini və əsas tətbiq funksiyalarını bilir. | 1. Kompüterlərdə paltar ülgüləri hazırlama proqramlarını sadalayır. | **4** | **PK-1<br>PK-2<br>PK-3<br>PK-4<br>PK-5<br>PK-6<br>PK-7** |
| | | 2. Kompüterlərdə paltar ülgüləri hazırlama proqramlarının əsas xüsusiyyətlərini və istifadə məqsədlərini izah edir. | | |
| | | 3. Proqramların əsas tətbiq funksiyalarını fərqləndirir. | | |
| | | 4. Yeni model dizayn etmək üçün fayl yaradır. | | |
| | | 5. Proqramların parametrlərini izah edir. | | |
| | 2. Adobe Illustrator, PhotoShop proqramlarında, CAD-CAM sistemlərindən istifadə etməyi bacarır. | 1. Adobe İllustrator proqramında sərbəst işləyir. | | |
| | | 2. Photoshop proqramından sərbəst istifadə edir. | | |
| | | 3. CAD/CAM sistemlərinin əsas hissələri və konsepsiyalarını bilir. | | |
| | | 4. CAD sistemində menyulardan istifadə edir. | | |

| | | | | |
|---|---|---|---|---|
| | | 5. CAD/CAM sisteminin əsas bölmələrini tətbiq etməklə, CAD sistemində geyim nümunələri dizayn edir. | | |
| | | 6. CAD sistemində tərtib edilmiş nümunələrin serializasiya üsulları, ardıcıl qaydalar cədvəlinin və kəsmə planının hazırlanması və yerləşdirilməsi prosedurlarını həyata keçirməyi bacarır. | | |
| | 3. Kompüterdə paltar ülgülərinin hazırlanması proqramlarında istifadə edilən cihazlardan istifadə etməyi bacarır. | 1. Əldə hazırlanmış ülgü dizaynlarını kompüter sisteminə köçürmə qaydasını izah edir. | | |
| | | 2. Ülgü nümunələrini kompüter sisteminə köçürür. | | |
| | | 3. Plotter cihazından istifadə edir. | | |
| | 4. Paltar ülgüləri hazırlama proqramlarında qadın geyim nümunələri hazırlamağı bacarır. | 1. Qadın ətək nümunələri hazırlayır. | | |
| | | 2. Qadın köynək nümunələri hazırlayır. | | |
| | | 3. Qadın don nümunələri hazırlayır. | | |
| | | 4. Qadın pencək nümunələri hazırlayır. | | |
| | | 5. Qadın şalvar ülgüləri hazırlayır. | | |
| | 5. Paltar ülgüləri hazırlama proqramlarında kişi və uşaq geyim nümunələri hazırlamağı bacarır. | 1. Kompüter dəstəkli ülgüləri hazırlama proqramlarında kişi köynəklərinin ön və arxa bədən rəsminin nümunələrini hazırlayır. | | |
